# MULTİKULTURALİZM İDEYALARININ KİTABXANA-İNFORMASİYA İNFRASTRUKTURUNDA TƏBLİĞİ MƏSƏLƏLƏRİ

**Günel Hüseynova**

*BDU, Kitabxanaşünaslıq kafedrasının laborantı*

Multikulturalizm - eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasətdir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil. Multikulturalizm müəyyən birləşmiş cəmiyyət daxilində etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunmasına və inkişafına yönələn bir siyasətdir.

Bəşəriyyətin yaratmış olduğu ideyalar, fəlsəfi-siyasi konsepsiyalar içərisində multikulturalizm ideyası insanlığa ən humanist anlayış kimi şöhrət qazanmışdır.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndəlləri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur.

Keçmiş dövrlərdən bəri Azərbaycanda müxtəlif xalqların (avarlar, talışlar, ləzgilər, udinlər və s.), dinlərin nümayəndələri əsrlər boyu dinc və mehriban, sülh və əmin-amanlıq şəraitində yaşayıblar. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan müxtəlif millətlərin, xalqların dinc və yanaşı yaşadığı ölkədir". Azərbaycanda tarixən həyat tərzi olan multikulturalizm ənənələri bu gün də yaşamaqdadır. Multikulturalizm, eyni zamanda, Azərbaycan cəmiyyətinin dünyaya özünü tanıtdırmaq rəmzidir.

Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarında və multikulturalizm haqqında imzaladığı dövlət sərəncamlarında multikulturalizmin müasir dünyanın mürəkkəb problemlərlə üzləşdiyi bir şəraitdə böyük xilasedici əhəmiyyətini diqqətə çatdırmış, elmi nəzəri əsaslarının hazırlanmasına böyük töhfələr vermiş, dünyanın bütün sülhsevər insanlarının rəğbətini qazanmışdır.

Müasir dünyada siyasi və humanitar kataklizmlərin baş verdiyi bir şəraitdə multikulturalizm ideyalarının təbliğinə böyük ehtiyac hiss edilməkdədir. Cəmiyyətdə yaranan bütün idarəçilik prinsipləri, siyasi-fəlsəfəsi konsepsiyalar mədəniyyətin qanunauyğunluğuna uyğun fəaliyyət göstərməlidir.

Respublikamızın bütün ideoloji, informasiya, mədəni-maarif və təhsil müəssissələri və digər humanitar təşkilatlar multikulturalizm ideyalarının təbliği prosesində yaxından iştirak etməli, təbliğatın müxtəlif forma və üsullarından sitifadə etməlidirlər.

Daimi və mövzu sərgilərində Ulu Öndər Heydər Əliyevin əsərlərindən, Prezidentin fərman və sərəncamlarının, rəsmi dövlət sənədlərindən, görkəmli dövlət xadimlərinin, mütəxəssislərin əsərlərindən iqtibaslarla təmin edilməlidir. Kitabxanalar Ulu Öndər Heydər Əliyevin multikulturalizm dəyərlərinin elmi əsaslarının əsas bazasını təşkil edən "Azərbaycançılıq fəlsəfi konsepsiyası" haqqında kitab sərgilərinin keçirilməsinə, bu konsepsiyanın, xalqımızın milli ideologiyası kimi öyrənilməsinə ciddi diqqət yetirməlidir.

Qloballaşma, sürətli məlumat mübadiləsi, məlumatın ötürülməsinin asanlaşması və XXI əsrdə gerçəkləşən digər proseslər bir çox ölkədə mədəniyyət fərqini daha da artırmışdır. Bu səbəbdən kitabxanaların mədəniyyətinə, dilinə və dininə baxmadan cəmiyyətin bütün üzvlərinə xidmət etməsi, cəmiyyətin ehtiyacını qarşılayaraq bilik mənbəyi kimi çıxış etməsi onların üzərinə düşən əsas vəzifələrdən biridir.

Multikulturalizm və tolerantlığın təbliğində kitabxanaların rolu mövzusunu təhlil edərkən qeyd edilməlidir ki, "Kitabxanalar xalqımızın zəngin multikulturalizm və tolerantlıq ənənələrini tədbirlər vasitəsilə oxucu kütləsinə çatdırmalı, kütləvi informasiya vasitələrindən heç də geridə qalmamalıdırlar.